

■ Əlirza HƏSRƏT

## HAVAYIDIR XƏRCLƏDİYİN XATİRƏM

Havayıdır xərclədiyin xatirəm,
Könlümdə bir güman yeri saxla, get.
Aramızda baxışını çıraq qoy,
Gözlərimi baxışınla bağla, get.

Bu qürbətdə hər ağacın barı yox,
Qırov tutan gül üstündə arı yox.
Dumanı yox, çovğunu yox, qarı yox,
Yaxşı olar, sinəmdəki dağla get.

Eşələmə, o qaralan külümdür,
Kül altında köz olmaq da zülümdür.
Bundan belə ayrılıqdır, ölümdür,
Ürəyini boşalt bir az ağla, get.

## EŞQ PAYI

Ayrı məhəbbətlə, özgə baxışla, -
Gəldim hüzuruna, məni bağışla.
Buluda çevrilib, dönər yağışla,
Qəfil şimşək kimi çaxıb gedənlər.

Bahar çiçəyidir, yaz ayıdır eşq,
Ahımdan tanıyıb, tez qayıdır eşq.
Elə ayrılıq da eşq payıdır, eşq! -
Çəkir adımızı baxıb gedənlər.

Ocağı bilinməz, piri bilinməz,
Biri bilinəndə, biri bilinməz.
Düşər gözlərimdən, yeri bilinməz,
Mənim ürəyimdən çıxıb gedənlər.

## OCAQ

İsindi ahına xatirələrim,
Ay mənim anamın gəlini ocaq.
Tüstü tellərini dola boynuma,
Ver mənə o kösöv əlini, ocaq.

Nə varaq götürüb, nə qələm çəkib,
Çiynimin ağrısın bu şələm çəkib.
Qərib baxışından gözüm nəm çəkib,
Qoy basım bağrıma külünü, ocaq.

Noğulum deyimmi, ya qəndim sənə?
Nə gözəl yaraşır gör kəndim sənə.
Tüstünü dağ bilib, söykəndim sənə, -
Öyrəndim sənin də dilini, ocaq.

## ƏLLƏRİM

Dayağım olsa da söykəndiyim dağ,
Əlimdən su içib bu bostan, bu bağ.
Üzümü hər yerdə ağ eləyib, ağ,
Evimə qulluqçu, nökər əllərim.

Sahibsiz xırmanda saxladınsa dən,
De,b undan nə fayda götürər Vətən?
Yaxşı adamların məhəbbətindən, -
Yenilməz bir qala tikər əllərim.

Əlimin qabarı ruhuma cansa,
Bu eşq ocağıdır ahımdan yansa.
Nadan süfrəsinə bir gün uzansa, -
Bax, onda belimi bükər əllərim!

## BAŞMAĞIMI GÖRƏSƏN

Kirpiklərim öyrəşdi ki bu nəmə,
Sənə qanım qaynadısa, qoy dəmə.
Mən coşanda susmağımı gözləmə,
Mən susanda coşmağımı görəsən.

Gül şehində aynalanır bu arı,
Bu nə dağdır, yox dumanı, yox qarı?!
Ayağıma geyinmişəm yolları,
Sən də gəlib başmağımı görəsən.

Son nəğməni nəzmə çəkir Qu arxda,
Şəklimizi tumarlayır su arxda.
Qucağını mənə açan bu arxda, -
Selə dönüb daşmağımı görəsən.

## ÇÖRƏK ƏTRİ

Könül məlhəmidir bu nübar elə,
Belə gözəllikdən harda var elə?
Anamı dövrəyə alanlar elə, -
Təndir çörəyinin ətrinə gəlib.

Zirvələr dumana yolun göstərir,
Boynuma salmağa qolun göstərir.
Lalə yaxasında xalın göstərir,
Bahar da bu gülün xətrinə gəlib.

Bu bayram tək yandı şamı süfrəmin,
Bəs hanı ləzzəti, tamı süfrəmin?
Bu zalım qürbətdə hamı süfrəmin, -
Boyat lavaşına, fətrinə gəlib.

## AYAĞI TORPAQDA OLAN AĞACLAR

Arzuya qol-qanad, eşqə kamsınız,
Ahdan köz götürüb yanan şamsınız.
Mən elə bilirdim siz adamsınız,
Mehrini könlümə salan ağaclar.

Xırmanda yiyəsiz qalardı dən də,
Qaçıb oynayardıq hər gün kölgəndə.
Məhəbbət payısan sən bizim kəndə,
Ağlımı başımdan alan ağaclar.

Sərinlik sevdası, yaşıllıq dini,
Basıb qol-budağı döngəni, tini.
Göylərə danışır Yerin sirrini, -
Ayağı torpaqda olan ağaclar.

## BİR EŞQİN XƏTRİNƏ

Ocaq tüstüsünə yığışıb hamı,
Hamının könlündə bir sevda şamı.
Başqadır ləzzəti, ayrıdır tamı,
Təndir çörəyinin ətrinə bax-bax.

Hasardan boylanır qonşu gəlin də,
Dəyəri başqadır burda ləlin də.
Anam qol götürüb oxlov əlində,
Sac üstə yaydığı fətrinə bax-bax.

Başımdan tökəndə tanrı ruzunu,
Ahıma ayna tut dan ulduzunu.
Uşaqlıq eləyib ömrüm uzunu, -
Böyüdüm bir eşqin xətrinə, bax-bax.

## UŞAQLIQ ELƏYİB BÖYÜDÜK ELƏ

Dağları ahıma sən də bük elə,
Dincəlsin çiynimdə qoy bu yük elə.
Uşaqlıq eləyib böyüdük elə,
Böyüyə-böyüyə uşaq qalmışıq.

Kiminə doğmayam, kiminə yadam,
Mən gərək bir şirin xatirə dadam.
Döyülə-döyülə sərt olur adam,
Biz niyə bu qədər yumşaq qalmışıq?

Niyə qatarından ayrıldı bu quş?
Zalım gülləsinə tuş gələcək,tuş.
Sünbülü urranmış, dəni sovulmuş, -
Bu zəmi yerində başaq qalmışıq.

## ÇÖRƏYİ TORPAĞA BATIRIB YEDİK

Hər çiçək çəmənin açılan çətri,
Görək nə istəyir o qızın xətri?
Tutdu gözlərimi şamama ətri,
Mən gedib bostana, tağa çatınca.

Yurd yeri tapınca, koğuşa söykən,
Qanadın uzadan o quşa söykən.
Zirvəyə arxalan, yoxuşa söykən,
Qartallar oylağı dağa çatınca.

Yatmadı könlümə bu qaya, bu dik,
Dumana divanə, dağa pir dedik.
Çörəyi torpağa batırıb yedik,
Əlimiz pendirə, yağa çatınca.

## LALƏNİN

Min gülün içindən keçib bu sevda, -
Saldı ayağına bizi lalənin.
İstədim qoxlayıb basım bağrıma,
Həyadan qızardı üzü lalənin.

O kimdir, əlləri qoynunda durub?
Ayrılıq rəsmidir gözündə qürub.
Çoban tütəyinin  havası vurub, -
Yanında otlayır quzu lalənin.

Elə bəzəyib ki yamacı, yalı,
Aşıq yarasına məlhəmdir xalı.
Bizim tərəflərdə halı-əhvalı, -
Başqadır ilk bahar qızı lalənin.

## BÜLBÜLÜM

Bahar çiçəyidir yuvası-yurdu,
Bir qərib diksinib, boynunu burdu.
Yangısı “segah”dı, naləsi “şur”du,
Nədir bu sevdanın qəsdi, bülbülüm?

Ötdüm o döngəni,keçdim bu tini,
Zirvədən enməkmiş yolun çətini.
Ahıma bükmüşdüm məhəbbətini, -
Gəldi həsrətimin dostu bülbülüm.

Elə bağlanıb ki, könlüm bu səsə,
Nə budaq titrəyə, nə külək əsə.
Aldadıb saldılar qızıl qəfəsə,
İlhamı gəlmədi, susdu bülbülüm.

## ÖYRƏNDİM DİLİNİ QARANQUŞLARIN

Çəkilib bu qış da dağın qoynuna,
Tamaşa eləyir çiçək oynaya.
Qolumu hayandan salım boynuna,
Bu bahar gəlini qaranquşların?

Dolaşıb nəğmə tək dildə, ağızda,
Getdi şaxta baba, köçdü qar qız da.
Boş qalmış yuvalar eyvanımızda, -
Gözləyir yolunu qaranquşların.

Duman, çən bəzəyib dağ sinəsini,
Açıb sevənlərə bağ sinəsini.
Bağrıma basmışdım ağ sinəsini,
Öyrəndim dilini qaranquşların.

## TAY-TUŞLARIM SEYRƏLİB

Son nəğməylə nazın çəkdi Qu eşqin,
Yol ayrıcı heykəlidir bu eşqin.
Qanıma tut, günahını yu eşqin,
Qoy görsünlər göz yaşlarım seyrəlib.

Şax dayanmış o sünbüldə bir dəndim,
Qollarını sal boynuma, a kəndim.
Yaman yerdə qəribsədim, təkləndim,
Yaman yerdə tay-tuşlarım seyrəlib.

Fatma nənə, buludlardan hana qur,
Naxışları ilmə-ilmə sana, dur.
Bülbül susub, şanapipik oxumur,
Hara köçüb gör, quşlarım seyrəlib?